# "Tarixə düşən seçki"

## *Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri xarici KİV-də geniş işıqlandırıldı*




**Parlament seçkilərinin gedişi beynəlxalq müşahidə missiyaları və xarici KİV tərəfindən yüksək qiymətləndirildi. Bütün rəylərdə, informasiyalarda seçkilərin ədalətli və şəffaf keçirildiyi, ölkəmizin demokratik dəyərlər yolu ilə inkişaf etdiyi birmənalı şəkildə öz əksini tapdı. Bildirildi ki, bütövlükdə bu seçkilər demokratik mühitdə, azad və şəffaf keçirildi, xalqın iradəsini ifadə etmək kimi fundamental vəzifə yerinə yetirildi, vətəndaşlar öz seçimlərini növbəti dəfə etdilər.**

Türkiyənin, Rusiyanın, Belarusun, Şimali Kipr Türk Cümhuriyyətinin aparıcı media orqanları növbədənkənar parlament seçkilərini geniş şəkildə işıqlandırdılar. Telekanalların reportajlarında və məqalələrdə Milli Məclisə seçkilərin Azərbaycanın gələcəyində böyük əhəmiyyəti vurğulandı.

"Türkiyə" qəzeti "30 ildən sonra bir ilk" başlıqlı xəbərində seçkilərin fərqli xüsusiyyət daşıdığına diqqət çəkdi. Qeyd olunub ki, parlament seçkiləri 30 ildə ilk dəfədir Azərbaycanın bütün suveren ərazisində təşkil olunur. Həmçinin vurğulanıb ki, respublikanın erməni işğalından azad olunmuş ərazilərində, o cümlədən Şuşa və Xankəndidə 42 mindən çox seçici qeydə alınmışdır.







"Axşam" qəzeti "Qardaş ölkə seçkilərdə" başlıqlı xəbərində Azərbaycanda növbədənkənar parlament seçkilərinin dəqiq, şəffaf və demokratik keçirildiyini diqqətə çatdırıb.

"Anadolu Agentliyi"nin "Azərbaycan seçkilərdə" başlıqlı məqaləsində isə bildirilib ki, Prezident İlham Əliyev iyunun 28-də VI çağırış Milli Məclisin buraxılması və Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamla altıncı çağırış Milli Məclis buraxılıb və sentyabrın 1-nə növbədənkənar seçkilər təyin edilib. Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərdə 54 seçki məntəqəsi fəaliyyət göstərib.

Qəzetlərdən "Hürriyət"in "Azərbaycan xalqı seçkilərdə", "Milat"ın "Azərbaycanda seçki vaxtıdır", "Yeni Şafak"ın "Azərbaycan seçkilərdə", agentliklərdən "Ulusal"ın "30 ildən sonra bütün torpaqlarda seçki həyəcanı", "Haber 7"nin "30 ildən sonra ilk dəfə tarixə düşən seçki", "Kamudanhaber"in "Xalq seçkilərdə", "Kıbrıshaber"in "Xalq seçkilər"də, kanallardan "TRTHaber", "Haber Global", "TGRTHaber" və "NTV"nin "Azərbaycan parlamentində seçkilər" başlıqlı materiallarında qeyd olunur ki, 30 illik fasilədən sonra Azərbaycanın işğaldan azad edilmiş ərazilərində parlament seçkiləri keçirilib. O da bildirilib ki, beynəlxalq və yerli müşahidəçilər də seçkidən sonra verdikləri açıqlamalarda seçkiqabağı dövrdə heç bir pozuntunun olmadığını, bütün namizədlər, siyasi partiyalar üçün lazımi şəraitin yaradıldığını bəyan ediblər.

Rusiyanın "TASS", "İnterfaks", "Bfm.ru" agentliklərində də parlament seçkilərindən geniş bəhs olunub. Xüsusi olaraq bildirilib ki, Azərbaycan ilk dəfə suveren ərazisində parlament seçkiləri keçirdi.

Belarusun "Belta" Agentliyinin seçkilərin gedişi barədə dərc etdiyi məqalədə isə MDB-nin müşahidəçilər missiyasının rəhbəri Leonid Anfimovun fikirlərinə yer ayrılıb: "Azərbaycanda parlament seçkiləri yüksək səviyyədə təşkil olunub".

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*